*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 26 noyabr 2016-cı il № 92 (2107) Qiyməti 25 qəpik


## Rəsmi xronika

✓ *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Amerika Birləşmiş Ştatlarının dövlət katibinin köməkçisinin Avropa və Avrasiya məsələləri üzrə müavini xanım Bridcet Brinki qəbul edib.*

*Görüşdə Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında əlaqələrin hazırkı vəziyyəti və perspektivləri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları ətrafında geniş fikir mübadiləsi aparılıb.*

* * *

✓ *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Avropa Voleybol Konfederasiyasının prezidenti Aleksandar Boriçiçi qəbul edib.*

*Ölkəmizdə idmanın təbliğinə, həmçinin müxtəlif beynəlxalq tədbirlərin təşkilinə böyük diqqət yetirildiyini vurğulayan Prezident İlham Əliyev qadınlar arasında Voleybol üzrə Avropa Çempionatının final mərhələsinin də Azərbaycanda uğurla keçiriləcəyinə, tədbirin mühüm beynəlxalq idman hadisəsinə çevriləcəyinə əminliyini ifadə edib.*

* * *

✓ *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Beynəlxalq Kanoe Federasiyasının prezidenti Xose Perurena Lopezi və Avropa Kanoe Federasiyasının prezidenti Albert Vudsu qəbul edib.*

*Dövlətimizin başçısı bu il Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilmiş Yay Olimpiya Oyunlarında idmançılarımızın kanoe idman növündə ilk dəfə medallar qazandıqlarını məmnunluqla qeyd edib və bildirib ki, bu nailiyyət gələcəkdə idmanın bu növünə marağın artmasına gətirib çıxaracaq.*

*Görüşdə Azərbaycanın idman sahəsində beynəlxalq əməkdaşlığa böyük töhfə verdiyi qeyd olunub.*

**AZƏRTAC-ın materialları əsasında**

*Ön xətdən reportaj*

# "Düşmənlə üz-üzə dayanan oğullarımızla fəxr edirik"

Ali Baş Komandan İlham ƏLİYEV:

*Lələtəpə əməliyyatı bizim qəhrəmanlıq rəmzimizdir. Lələtəpə tarixə düşdü. Əgər erməni silahlı qüvvələri aprel döyüşlərindən düzgün nəticə çıxarmasalar, gələcəkdə Lələtəpə əməliyyatı kimi bir çox uğurlu əməliyyatlar olacaqdır.*



Dəfələrlə tarixin sınağından çıxmış və həqiqiliyi təkrar-təkrar təsdiqini tapmış məşhur bir deyimi bu günlərdə cəbhə bölgəsinə gedəndə xatırladım - öncə Vətəndir. Bu sözlərin nə qədər böyük məna tutumuna malik olduğunu Qarabağ müharibəsi illərində dərindən başa düşmüşük. Ona görə bu gün ölkəmizdə Vətənin müdafiəsi prioritet hesab edilir və respublika rəhbərliyi səviyyəsində dövlətimizin təhlükəsizliyinin qarantı olan Silahlı Qüvvələrimizin gücləndirilməsi və potensialının artırılması üçün atəşkəsdən sonrakı illərdə böyük işlər görülüb. Hər dəfə yolumuz cəbhə bölgəsinə düşəndə, hərbi hissələrimizin zabit və əsgərlərilə görüşəndə ordu quruculuğu sahəsində görülən işlərin nə qədər genişmiqyaslı olduğunu görür və buna görə dövlətimizlə, ordumuzla fəxr edirik.

Onu da qeyd etmək yerinə düşər ki, hər şeydən öncə Vətənimizin müdafiəsində mətinliklə dayanan, əldə silah gecə və gündüz xalqımızın əmin-amanlığının keşiyini ayıq-sayıq çəkən Vətən oğulları ilə görüşmək, onların düşüncə və duyğularını qələmə almaq eyni dərəcədə qürurvericidir.

**(Ardı 3-cü səhifədə)**

# Azərbaycan ilə İran arasında hərbi-texniki əməkdaşlığın perspektivləri müzakirə olunub

*Noyabrın 23-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov İran İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Cavad Cahangirzadə ilə görüşüb.*

Səfiri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edən nazir ona Azərbaycan ilə İran arasında əməkdaşlığın genişləndirilməsi istiqamətində uğurlar arzulayıb.

Müdafiə naziri Azərbaycan-İran münasibətlərinin inkişafında ölkə rəhbərlərinin görüşlərinin mühüm rol oynadığını və hərbi sahədə də əlaqələrin ikitərəfli əməkdaşlıq planına uyğun olaraq uğurla davam etdiyini vurğulayıb.

Diplomat isə öz növbəsində dost və qardaş olan Azərbaycanda səfir kimi fəaliyyətə başlamasından məmnun olduğunu, ölkələrimiz arasında əlaqələrin, xüsusilə hərbi sahədə əməkdaşlığın inkişafı üçün səylərini əsirgəməyəcəyini deyib.



İran İslam Respublikası Hərbi Dəniz Qüvvələrinin gəmilərinin Bakıya dostluq səfərinin yüksək səviyyədə həyata keçirilməsindən məmnunluq ifadə edən səfir bu cür səfərlərin qarşılıqlı və intensiv şəkildə təşkil olunmasının vacibliyini xüsusi qeyd edib.

Hərbi sahədə əlaqələrin perspektivlərinə toxunan tərəflər bu istiqamətdə fəaliyyətlərin genişləndirilməsi, birgə planların işlənilməsi, qarşılıqlı səfərlərin təşkili, o cümlədən mütəxəssislərin iştirakı ilə iki ölkənin Müdafiə Nazirliklərinin hərbi-texniki əməkdaşlıq üzrə müştərək komissiyasının yaradılması barədə fikir mübadiləsi aparıblar.

Görüşdə Azərbaycan ilə İran arasında hərbi əməkdaşlığın mövcud vəziyyəti, eləcə də hərbi təhsil və hərbi tibb sahələrində əlaqələrin inkişaf perspektivləri, regional problemlər də müzakirə olunub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, foto Natiq İSAYEVİNDİR**

# Hərbi tibb xidmətinin il ərzində fəaliyyətinin yekunları təhlil edilib

## Müdafiə naziri Silahlı Qüvvələrin tibb xidmətinin rəhbər heyəti ilə görüşüb



*Noyabrın 24-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Silahlı Qüvvələrin hərbi tibb xidmətinin rəhbər heyətinin ilin yekunlarına həsr olunmuş toplantısında iştirak edib.*

Toplantı iştirakçıları əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin hospitalın foyesindəki büstü önünə gül dəstələri düzüb və xatirəsini ehtiramla yad ediblər.

Tədbiri giriş sözü ilə açan Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi tibb xidməti general-mayoru Natiq Əliyev son bir il ərzində qoşunlarda şəxsi heyətin döyüş hazırlığı, sosial-məişət şəraitinin yaxşılaşdırılması, eləcə də hərbi tibb müəssisələrinin yenidən qurulması və müasir avadanlıqlarla təchiz edilməsi barədə məlumat verib.

İdarə rəisi vurğulayıb ki, müayinə və müalicə işinin təkmilləşdirilməsi, hərbi qulluqçuların, onların ailə üzvlərinin sağlamlığının qorunması müasir tələblər səviyyəsində həyata keçirilir və bu iş ordu rəhbərliyinin daim diqqətindədir.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov tibb xidmətinə cavabdeh zabitlərin toplantısında çıxış edərək Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında son illər Silahlı Qüvvələrimizin döyüş qabiliyyətinin gücləndirilməsi istiqamətində aparılan islahatlardan və həyata keçirilən genişmiqyaslı quruculuq işlərindən danışıb.

Ölkəmizdə müasir hərbi səhiyyənin formalaşdığını qeyd edən Müdafiə naziri orduda şəxsi heyətin sağlamlığının qorunması istiqamətində həyata keçirilən vacib tədbirlərdən, həmçinin bu sahənin də maddi-texniki bazasının möhkəmləndirilməsi üçün görülən işlərdən söhbət açıb. Tibb işçilərinin üzərinə düşən vəzifə və tapşırıqlardan danışan general-polkovnik Zakir Həsənov hərbi həkimlərin öz peşələrinə sədaqət və məsuliyyət hissi ilə xidmət etmələrinin vacibliyini bildirib. "Bu gün ölkəmiz müharibə şəraitindədir, torpaqlarımızın işğaldan azad edilməsi ən mühüm məsələ kimi qarşımızda dayanır. Məhz buna görə də ordumuzun əksər hərbi bölmələri düşmənlə təmas xəttində Vətənimizin keşiyində dayanıb. Belə müqəddəs vəzifəni yerinə yetirən şəxsi heyətin sağlamlığının qorunmasına daim ciddi fikir verilməlidir", - deyə nazir vurğulayıb.



Müdafiə naziri əminliklə bildirib ki, Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin Silahlı Qüvvələrimizin qarşısında qoyduğu mühüm vəzifə və tapşırıqların uğurla yerinə yetirilməsi naminə hərbi tibb heyəti bundan sonra da öz töhfəsini əsirgəməyəcəkdir.



Sonda Müdafiə naziri toplantı iştirakçılarını maraqlandıran sualları cavablandırıb və bir sıra məsələlərə aydınlıq gətirib.

Hərbi tibb heyətinin nümayəndələrindən bir qrupuna mükafatlar təqdim edildikdən sonra Müdafiə naziri Silahlı Qüvvələrin Baş Klinik Hospitalı ərazisində Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Mərkəzinin yeni inşa edilən binasında görülən işlərlə maraqlanıb, tövsiyə və tapşırıqlarını verib.

**"Azərbaycan Ordusu", fotolar Natiq İSAYEVİNDİR**

# Azərbaycan ilə Qətər arasında hərbi sahədə əlaqələrin inkişafı məsələləri müzakirə olunub



Noyabrın 25-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Qətər Dövlətinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Yusif bin Həsən Əl-Saai ilə görüşüb.

Səfiri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edən nazir ona Azərbaycan ilə Qətər arasında əməkdaşlığın genişləndirilməsi istiqamətində uğurlar arzulayıb.

Azərbaycan-Qətər münasibətlərinin genişləndirilməsində ölkə rəhbərlərinin səylərini xüsusi vurğulayan nazir ölkələrimiz arasında hərbi sahədə də əlaqələrin uğurla inkişaf etdiyini deyib.

Diplomat isə öz növbəsində dost və qardaş olan Azərbaycanda səfir kimi fəaliyyətə başlamasından məmnun olduğunu, ölkələrimiz arasında əlaqələrin, xüsusilə hərbi sahədə əməkdaşlığın inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirib.

Görüşdə ölkələrimiz arasında mövcud əlaqələr, o cümlədən hərbi sahədə əməkdaşlığın perspektivləri, regional təhlükəsizlik, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və digər qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti,**
**foto**
**Natiq İSAYEVİNDİR**

# Azərbaycanın Müdafiə naziri Belçikanın ölkəmizdəki səfiri ilə görüşüb



Noyabrın 25-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Belçika Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bert Skufs ilə görüşüb.

Görüşdə Azərbaycan ilə Belçika arasında bir çox istiqamətlərdə olduğu kimi, hərbi sahədə də mövcud əməkdaşlığın və qarşılıqlı etimadın gücləndirilməsinə xidmət edən fəaliyyətləri xüsusi qeyd edən nazir səfirə diplomatik fəaliyyətində uğurlar arzulayıb.

Azərbaycanın NATO ilə müxtəlif proqramlar, o cümlədən "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsində əlaqələrini qeyd edən Müdafiə naziri Əfqanıstanda həyata keçirilən "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyasında ölkəmizin də aktiv iştirak etdiyini xatırladıb.

Diplomat isə öz növbəsində deyib ki, Belçika Krallığı NATO və digər beynəlxalq qurumlar kimi Azərbaycanın ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini dəstəkləyir. Səfir Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin tərəfdarı olduğunu xüsusi qeyd edib.

Tərəflər regional təhlükəsizlik, beynəlxalq terrorizmə qarşı birgə mübarizə və digər istiqamətlər üzrə tərəfdaşlıq məsələlərini müzakirə edib, hərbi əlaqələrimizin inkişaf perspektivləri barədə fikir mübadiləsi aparıblar.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti,**
**foto**
**Natiq İSAYEVİNDİR**

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini pozub

*__25 noyabr 2016-cı il.__*

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 29 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar, Noyemberyan rayonunun Barekamavan, Şavarşavan kəndlərində yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Qaymaqlı və Fərəhli kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Şıxlar, Cəvahirli, Şuraabad, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# "Düşmənlə üz-üzə dayanan oğullarımızla fəxr edirik"

**(Əvvəli 1-ci səhifədə)**



- Şəxsi heyətin hazırlığı, döyüş ruhu da yüksəkdir, - zabit Nemət Məmmədov bildirir. - Vəziyyətə burada döyüşçülərimiz tam nəzarət edirlər. Dövlətimiz, Müdafiə Nazirliyinin rəhbərliyi şəxsi heyət üçün hər cür şərait yaradıb. Qidalanma, məişət şəraiti arzuolunan səviyyədədir. Bir sözlə, layiqincə xidmət etmək üçün tam imkanımız var. Döyüşçülərimiz ön xətt postlarında ayıq-sayıq döyüş növbəsi aparırlar.Ancaq ermənilər yenə mövqelərimizi tez-tez müxtəlif silahlardan atəşə tuturlar. Axşam avtomatlardan, pulemyotlardan postlarımıza atəş açmışdılar. Atəşkəsi pozan kimi cavablarını elə veririk ki, susmaqdan başqa çarələri qalmır. Bizə həvalə edilmiş bu mövqelərdə soyuqqanlılıqla, məsuliyyətlə xidmətimizi aparırıq. Bundan sonra da belə olacaq və Vətənin hər əmrinə hazırıq.

Hərbi hissənin qərargahında vaxt itirmədən zabit Taleh Balabəyovla birlikdə ön xəttə, döyüş postlarına yola düşürük. Yolboyu cəbhədəki vəziyyət barədə söhbət edirik. Döyüşçülərimizin, doğrudan da, canbaşla Vətənə xidmət etməsi, istər zabitlərin, istərsə də əsgərlərimizin yüksək döyüş ruhuna malik olması barədə zabit maraqla söhbət açır.

Bizi ön xəttə aparan maşın kəndin sonuncu evlərini də arxada qoyub mövqelərimizə yaxınlaşır. Qarabağ müharibəsi illərində burada ağır döyüşlər gedib. Kəndin bəzi evləri həmin döyüşlərin qanqaraldan izlərini hələ də yaşatmaqdadır. Həmin ocaqları düşmən tərəfindən yandırılaraq sıradan çıxarılıb. Ürək ağrısı ilə yolu qət edib bölməyə tərəf buruluruq.

Bu yerlərdə xidmət edən Vətən oğulları bu acınacaqlı mənzərəni hər gün müşahidə edirlər. Görünür, ona görə onların düşmənə nifrəti bitib-tükənməzdir. Belə hərbçilərimizdən biri də zabit Namiq Aslanovdur. Onu uzun müddətdir ki, tanıyıram. İşğal edilmiş torpaqlarımızın azad edilməsi üçün fədakarlığa hazır olan zabit Aslanov indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunudur. Uzun müddətdir ki, Silahlı Qüvvələrimizdə müxtəlif vəzifələrdə xidmət edib. Sinəsində Azərbaycanı dərindən sevən qaynar bir ürək gəzdirir.

Zabit Aslanov əslən müharibə illərində erməni vandallarının ən çox zərər vurduğu Füzuli rayonundandır. Rayon kəndlərinin böyük əksəriyyətini düşmən talan edib, dağıdıb, xarabalığa çevirib. Namiq Aslanovun həmyerlilərinin çoxu hələ də düşmənin inadkarlığı səbəbindən ev-eşiklərinə qayıtmaq imkanından məhrumdur.

- Bizim bölmə ön xətdə qarşımıza qoyulmuş vəzifələri yerinə yetirməklə məşğuldur, - zabit Aslanov bildirir. - Əsgərlərimiz düşmənlə təmas şəraitində döyüş növbətçiliyi aparırlar. Xidmətin yüksək səviyyədə təşkili üçün ordu rəhbərliyi tərəfindən bütün lazımi şərait yaradılıb. Növbədən qayıtmış döyüşçülər lazımınca istirahət edirlər. Şəxsi heyətimiz hər an Ali Baş Komandanın döyüş əmrini gözləyir. Aprel döyüşləri də göstərdi ki, ordumuz işğal altında olan ərazilərimizi azad etmək əzmindədir.

Son günlərin söhbətidir. Düşmən postlarımızın qarşısında, mühəndis-istehkam işləri aparmaq üçün traktor çıxarmağa cürət edibmiş. Deyəsən, sədd qazmaq istəyirmişlər. Döyüşçülərimiz onlara bu imkanı verməyiblər, ermənilərin traktorunu sıradan çıxarıblar.

- Azərbaycan torpaqlarında onların haqqı yoxdur ki, hansı işi görsünlər, möhkəmlənsinlər, - zabit Aslanov qətiyyətlə vurğulayır. - O torpaqlar bizimdir, o ərazilərin yiyəsi bizik. Düşmən mütləq oradan çəkilməlidir. Biz bunu aprelin əvvəllərində də onlara xatırlatdıq. Döyüşçülərimiz bundan daha da ruhlandılar. Hiss edirlər ki, düşməndən güclüdürlər və onlara layiq olduqları yeri göstərə bilərlər. Əsgərlərimizin hər birində ruh yüksəkliyi vardır. Hər an düşmənə layiqli cavab verməyə, işğal edilmiş Vətən torpaqları uğrunda mübarizə aparmağa hazırdırlar.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin bu yaxınlarda cəbhə bölgəsində zabit və əsgərlərimizlə görüşərkən dediyi sözləri xatırlayıram:

"Lələtəpə əməliyyatı bizim qəhrəmanlıq rəmzimizdir. Lələtəpə tarixə düşdü. Əgər erməni silahlı qüvvələri aprel döyüşlərindən düzgün nəticə çıxarmasalar, gələcəkdə Lələtəpə əməliyyatı kimi bir çox uğurlu əməliyyatlar olacaqdır. Ermənistanın siyasi rəhbərliyi, nəhayət, dərk etməlidir ki, işğalçılıq hərəkətləri onları uçuruma aparır. Azərbaycan gündən-günə güclənir, möhkəmlənir. Bizim güclü potensialımız və güclü ordumuz var. Biz ordumuzla, əsgər və zabitlərimizlə, sizinlə - bax, burada düşmənlə üz-üzə dayanan oğullarımızla fəxr edirik."

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

# Azərbaycan Silahlı Qüvvələrində "NATO günləri" davam edir





NATO-nun Müttəfiq Transformasiya Komandanlığının Ekspert Qrupu tərəfindən Silahlı Qüvvələrdə keçirilən "NATO günləri" tədbiri çərçivəsində general-mayor Odd Egil Pedersenin rəhbərlik etdiyi nümayəndə heyəti Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində olub.

Görüş zamanı nümayəndə heyətinə Azərbaycan-NATO hərbi əməkdaşlığı, NATO-nun Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) proqramının Azərbaycan Silahlı Qüvvələrində tətbiqi və ölkəmizin NATO-nun həyata keçirdiyi sülhməramlı əməliyyatlara töhfəsi ilə bağlı məlumat verilib, həmçinin NATO ilə əməkdaşlığın perspektivləri müzakirə olunub.

Görüşdə NATO nümayəndə heyətinin diqqətinə regional təhlükəsizlik məsələləri də çatdırılıb.

* * *

Silahlı Qüvvələrdə "NATO günləri" çərçivəsində NATO nümayəndə heyəti Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini ziyarət edib.

General-mayor Odd Egil Pedersenin rəhbərlik etdiyi nümayəndə heyətinin hərbi məktəbin komandanlığı ilə görüşü keçirilib, hərbi təhsil müəssisəsinin yaranma tarixi, təlim-tədrisi prosesi və digər fəaliyyətlərinə dair ətraflı brifinq təqdim edilib.

Nümayəndə heyəti hərbi təhsil ocağının kafedralarındakı tədris vəsaiti, maddi-texniki vasitələr və digər hərbi təyinatlı avadanlıqlarla yaxından tanış olub.

Qonaqlara müxtəlif ixtisas fakültələrinin döyüş texnikası və təlim trenajorları, atıcı silahlar və digər hərbi təyinatlı vasitələr barədə ətraflı məlumat verilib.

* * *

"NATO günləri" çərçivəsində ölkəmizdə səfərdə olan NATO-nun Müttəfiq Transformasiya Komandanlığının ekspert qrupu noyabrın 24-də Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasını ziyarət edib.

General-mayor Odd Egil Pedersenin rəhbərlik etdiyi nümayəndə heyəti akademiyanın rəhbərliyi ilə görüşüb.

Görüşdə Azərbaycan ilə NATO arasında həyata keçirilən proqramların müzakirəsi ilə yanaşı, Silahlı Qüvvələrin hərbi təhsil sisteminin inkişafına yardım üzrə NATO-Azərbaycan birgə hərbi təhsil və təlim sahəsində fəaliyyəti ilə bağlı geniş fikir mübadiləsi aparılıb.



Nümayəndə heyətinə Müdafiə Təhsilinin Genişləndirilməsi Proqramı çərçivəsində NATO-nun üzv və tərəfdaş dövlətlərlə yaranmış əlaqələr və bu istiqamətdə perspektivlər barədə məlumat verilib. Qonaqlara akademiyanın yaranma tarixi, strukturu, təlim-tədris prosesi və digər fəaliyyətləri barədə ətraflı brifinq təqdim edilib.

Tədbir proqramı çərçivəsində Silahlı Qüvvələrin Hərbi Akademiyasının dinləyicilərinə "NATO-nun komandanlıq strukturu", "Azərbaycan-NATO əməkdaşlığı", "Strateji proqnozlaşdırma analizi", "NATO-da əməliyyatların planlaşdırılması prosesi", "Əməliyyat İmkanları Konsepsiyası", "NATO-Varşava Zirvə Toplantısından sonra", "NATO-Cənubi Qafqaz tərəfdaşlığı" və digər mövzularda mühazirələr təqdim olunub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## "Birləşmiş Ştatlar Azərbaycan ilə əməkdaşlığın davam etdirilməsinə sadiqdir"

AZƏRTAC xəbər verir ki, bu fikri ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini xanım Bridcet Brink söyləyib. O deyib ki, ABŞ müstəqil, sabit, demokratik, inkişaf edən Azərbaycan ilə əməkdaşlığı davam etdirəcək.

Dövlət Departamentinin rəsmisi Azərbaycanda keçirdiyi görüşlərdə ikitərəfli əlaqələri daha da inkişaf etdirməyin yollarının müzakirə olunduğunu qeyd edib. Bildirib ki, görüşlərdə terrorla və transmilli cinayətkarlıqla mübarizə, təhlükəsizlik, habelə iqtisadi əlaqələr, energetika məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb. Azərbaycanın bu sahədə əldə etdiyi uğurların və ölkədə həyata keçirilən iqtisadi islahatların da müzakirə olunduğunu vurğulayan B.Brink ABŞ-ın Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolunu yüksək qiymətləndirdiyini vurğulayıb.



## Səngərdən o üzə...

*Payız çıxmamış qış qapımızı döydü. Adətən tez qar yağanda el arasında belə deyirlər. Son günlər havaların kəskin soyumasına baxmayaraq düşmənlə qarşı-qarşıya xidmət edən əsgərlərlə bağlı heç bir narahatlıq yoxdur. Çoxdan tanıdığım zabit Seymur Həbibullahov söhbət zamanı dedi ki, əsgərlərin təminatı həmişə diqqətdə olan məsələdir. "Çünki illərdi hərbçilərimiz çöl-səhra şəraitində xidmət edirlər. Torpaqlarımızın bir hissəsini işğal edən bədnam ermənilərlə müharibə şəraitində olduğumuz üçün təxirəsalınmaz tədbirlər görmək məcburiyyətindəyik. Odur ki, bütün bölmələrdə qışa hazırlıq üçün gərəkli addımlar atılıb."*

Ön xətdə düşmənə yaxın postda olduq. Müşahidəçi Tural İsmayılov qətiyyətli, bacarıqlı döyüşçüdür. Düşmənlə ön mövqedə müşahidə aparır. Bu soyuq havalarda əsgər üçün vacib olanı həm də onun isti geyimidir. Döyüşçülərin istər əşya, istərsə də ərzaq təminatları Müdafiə Nazirliyi rəhbərliyinin daim diqqətindədir. Əsgərdən tələb olunan isə xidmətini ayıq-sayıq aparmaq və döyüş vərdişlərini artırmaqdır.

Əsgər Tural İsmayılov deyir ki, onların başlıca vəzifəsi qarşıdakı düşməni nəzarətdə saxlamaqdır. Bunun üçün onlar lazım olan müşahidə cihazları, silah və döyüş sursatları ilə təmin olunublar. Sol tərəfimiz isə uzandıqca uzanıb gedən dərələrdi. Dərə boyu bir yol uzanır, bu yoldan da yollar ayrılır. Yollar bizi vaxtilə Cəbrayıla, Zəngilana, Qubadlıya aparıb. İndi isə... Ruhumuz yenə də o yerlərdədi. Gözümüzü doğma yerlərdən çəkə bilmirik. Vaxt vardı indi ayaq basdığımız bu yerə də həsrətlə baxırdıq. Bəli, bu yerlərə qayıtdığımız kimi, erməni işğalı altında olan başqa ərazilərimizi də qarış-qarış dolanacağıq.

Daha bir müşahidəçi əsgər İkram Səlimovla görüşürəm. İkram bir ildən artıqdır ki, xidmət edir. O, əslən Ağdaş rayonundandır. Vətənin hər qarışının doğma və əziz olduğunu deyən döyüşçü erməni işğalı altında olan yurd yerlərimizin azad edilməsi üçün hər an döyüşə hazırdı. "Bir saatdı, bəlkə də bir az da çox müşahidə aparıram. Düşmənin mövqelərində ara-sıra avtomobillər hərəkət edir. Başqa heç nə gözə dəymir."

Atəşkəsin pozulmasına gəlincə döyüşçü deyir ki, düşmən günün istənilən vaxtında mövqelərimizə atəş açır. "Biz ləngimədən onlara cavab veririk. Bundan sonra susmağa məcbur olurlar. Dumanlı-çiskinli havada, görmə qabiliyyəti məhdud olanda sayıqlığımızı daha da artırırıq."

Zabit Seymur Həbibullahov bildirdi ki, düşmən bir addım irəliləyə bilməz. "Əgər belə bir cəhd olarsa, aprelin əvvəlində olduğu kimi layiqli cavablarını alacaqlar."

**Mayor Bəxtiyar ƏLİYEV, "Azərbaycan Ordusu"**

*Vətənpərvərlik*

# "Zəfər bizim olacaq"

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Füzuli rayonu ərazisində ön xətdə hərbi qulluqçular qarşısındakı çıxışında söylədiyi "Aprel döyüşləri hərbi dərsliklərə salınmalıdır. Azərbaycan Ordusu bu döyüşlərdə peşəkarlıq, qəhrəmanlıq, məharət göstərmişdir" fikirləri işğalda olan torpaqlarımızın tezliklə azad ediləcəyinə tam zəmanətdir.

Biz uzun zamandır ki, qələbə sevinci yaşamırdıq. Apreldə Azərbaycan oğulları bu qüruru, bu güvəni bizə yaşatmaqla bərabər, zəfərin əsgər və zabitlərimizin zehniyyətindən, iradəsindən və arxa cəbhə ilə ön cəbhənin eyni vaxtda nəfəs ala bilməsindən keçdiyini öyrətdilər. Axı, qələbə öncə düşüncədə, sonra meydanda qazanılır. Bəli, zəfər "zəfər mənimdir" deyə bilənindir. Ona görə də zəfər qazanmağın yolu yalnız mənəviyyatımızdan keçir. Savaş bütün arzuolunmazlıqları ilə bərabər, eyni zamanda bir millətin genetik xarakterinin və mənəviyyatının nümayişidir. Çünki döyüşdə tək-tək insanlar deyil, bütöv toplum iştirak edir. Qeyd etmək lazımdır ki, dünyada hər bir xalqın yurdu, torpağı, tarixi, milli mədəniyyəti, sosial quruluşu və s. onun mənəviyyatını müəyyənləşdirən amillərdir. Bütün bunlar yurd anlayışını mahiyyətcə mənəviləşdirir və bu yurdda yaşayan xalqın milli psixologiyasını formalaşdırır. Xalqımızın mədəniyyət tutarı coğrafi tutarından çox-çox böyük olduğundan döyüş mədəniyyəti də özünəməxsusdur, tolerantdır. 1988-ci ildən bu günə Azərbaycana qarşı apardığı ədalətsiz müharibədə Ermənistan mənəviyyat normalarına sığmayan, insanlığa zidd davranış "nümunəsi" göstərmiş, habelə beynəlxalq qanun və müharibə şərtlərini kobudcasına pozmuşdur. Lakin xalqımız 30 ilə yaxın zamanda kimsənin torpağına göz dikmədən Vətənini, yurdunu, şəhidinin dəfn olunduğu torpağını azad etmək, tarixini, mədəniyyətini erməni vandallarından qorumaq və barbarcasına məhvedilmədən qurtarmaq istəyir. Bu haqq uğrunda neçə-neçə Vətən oğlu, Vətən qızı şəhid oldu...

Yenə də yolum cəbhə xəttinə idi. Payız bu il yamanca sərt gəlmişdi. Deyəsən, hətta qışı da özü ilə bərabər gətirmişdi. Məqsədim, həmişə olduğu kimi, ön xətdə gecə-gündüz səngərlərdə Vətənin müdafiəsində ayıq-sayıq dayanan qəhrəman hərbçilərimizin arzu və istəklərini qələmə almaq, şərəfli xidmətlərinin bir anının fotosunu çəkmək, aprel döyüşlərində fərqlənən əsgərlərimizlə görüşüb söhbət aparmaq idi.



Ataxan, Əfqan, Vüsal, Kamran, Fərid.... adlarını yazmaqla bitmir. Dedilər ki, hər biri aprel döyüşlərində fəal iştirak edib, digər bölüyün əsgərləri ilə birlikdə komandirlərinin verdiyi döyüş tapşırıqlarını sonadək layiqincə yerinə yetiriblər. İçdikləri Vətən andına, Hərbi anda sadiq qalıblar. Buna görə hər biri hərbi hissə komandanlığı tərəfindən mükafatlandırılıb. Onlar 17 aydır ki, hərbi xidmət keçirlər. Döyüşlər gedəndə doqquz ayın əsgərləriydilər. Bu mübariz ruhlu gənclərin yaddaşlarında silinməz izlər qoyan aprel zəfəri hər birinin əsgərlik həyatının qürurverici anları kimi çox xatırlanacaq. Hər zaman fəxrlə deyəcəklər ki, biz də aprel döyüşünün iştirakçısı olmuşuq.

Manqa komandiri kiçik çavuş Ataxan Məmmədov Sabirabad rayonunun Nizami kəndindəndir. Şirvan şəhər İqtisadiyyat və Humanitar Kollecində təhsil alıb. Atası Vidadi Məmmədov, dünyasını dəyişən əmisi Atamoğlan 1992-1994-cü illərdə Qarabağ uğrunda gedən döyüşlərə könüllü qatılmışdılar. Bu gün Ataxan da onların davamçısı kimi düşmən işğalında olan torpaqlarımızı, gözəl Qarabağımızı, Şuşamızı azad etməyə hər an hazırdır. "Daim Vətənin müdafiəsində dayanmağı özümə şərəf bilirəm. Hərb sənətinə böyük marağım olduğundan orduda qalıb xidmətimi davam etdirmək istəyirəm", - deyir əsgər.

Kiçik çavuş Kamran Musayev də manqa komandiridir. Qazax rayon Orta Salahlı kəndində dünyaya göz açıb. Yaşadığı rayon cəbhə bölgəsində yerləşdiyindən müharibənin acılarını hələ kiçik yaşlarından hiss edib. Kamranın atası Elçin Musayev də ilk könüllülərdəndir. Aprel döyüşlərindən söhbət açanda "Bir ömür boyu yazıldı taleyimizə həmin döyüşlər. Mən də o döyüşlərin iştirakçısı olduğuma görə qürurluyam", - Kamran dedi.

Manqa komandiri kiçik çavuş Fərid Əzimov isə Qəbələ rayonundan hərbi xidmətə çağırılıb. Gəncə Dövlət Universitetinin bədən tərbiyəsi və idman fakültəsində qiyabi təhsil alır. Fəridin də atası Rakif Əzimov 1992-ci ildə ordumuzun ilk könüllülərindən olub. Tərtərdə döyüşüb. Döyüşçü yoldaşının, əsgərlik dostunun ona ən doğma insan olduğunu deyən Fərid aprel döyüşlərində şəhid olan komandirləri kapitan Nəcməddin Savalanovun unudulmaz əziz xatirələrini yada saldı: "İstirahət günlərində bizimlə voleybol oynayardı. O bu oyunu çox sevirdi. Bizə səmimi dost, qardaş münasibəti bəsləyirdi. Qorxmaz, cəsarətli, çevik komandir idi... Allah ona rəhmət eləsin".

Əsgər Əfqan Mahmudov əslən Laçın rayonundandır. Ata-baba yurdu Laçın rayonu ermənilərin işğalına məruz qaldıqdan sonra doğmaları müvəqqəti Şəki şəhərində məskunlaşıb. Orta musiqi təhsili alan Əfqanın gözəl səsə malik olduğunu və "Qarabağ şikəstəsi"ni, muğamlarımızı ustalıqla ifa etdiyini də öyrəndim. Döyüşçü yoldaşı Vüsal söylədi ki, ordumuzun aprel qələbəsindən sonra azad olunmuş ərazilərdə mühəndis-istehkam işləri görülərkən Bayraqtəpədə Əfqanın zəngulələsi ətrafı lərzəyə salmışdı.

Əfqanın ən böyük arzusu doğma yurdu Laçının uca dağlarında, gözəl Şuşamızda "Qarabağ şikəstəsi"ni oxumaqdır.

Əsgər Vüsal Mirzəyev Sabirabad rayon Şıxsalahlı kəndində anadan olub. Əkiz qardaşı Röyal Mirzəyevlə birlikdə Vətənin keşiyində gecə-gündüz ayıq-sayıq dayanan əsgərdir. Döyüş növbəsində olan Röyalla söhbət apara bilməsək də, öyrəndim ki, manqanın baş əsgəridir. İki qardaş aprel döyüşlərində tapşırıqların yerinə yetirilməsində yüksək fəallıq göstəriblər.

Vüsal ordu sıralarını tərk etmək istəmir. O, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu olmaq arzusundadır. Torpaqlarımızın azadlığı naminə qardaşı Röyalla döyüşlərə atılmağa hər zaman hazır olduğunu dedi.

Fikrimcə, belə vətənpərvər gəncliyin formalaşmasında yurd sevgisini varlığında yaşadan qəhrəmanlarımızın ömür və döyüş yolu ən dəyərli örnəkdir. Bugünkü gəncliyimiz Mübariz, Fərid, Samid kimi oğulların qəhrəmanlığını bədii əsərlərdən oxuyub, filmlərdən öyrənmədi, bütün baş verənləri həyatda gördü və onların müasiri oldu. Ölümü ilə ölümsüzlüyə qovuşan Mübariz xalqına çağırış etdi: Zəfər "zəfər mənimdir" deyə bilənindir.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Təlimlər döyüş ruhunu artırır

*Azərbaycan Silahlı Qüvvələrinin irimiqyaslı təlimlərində Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti gecə və gündüz, dağlıq və çətin keçilə bilən ərazilərdə bütün döyüş tapşırıqlarının öhdəsindən layiqincə gəlib.*



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, noyabrın 12-dən 18-dək səhra şəraitində qoşunların idarə olunması və silahların döyüş tətbiqinin yoxlanılması məqsədilə Silahlı Qüvvələrdə 3 mərhələdə irimiqyaslı təlimlər keçirilib.

Təlim çərçivəsində qoşunların döyüşə hazırlığının yoxlanılması məqsədi ilə birinci mərhələyə uyğun olaraq Əlahiddə Ümumqoşun Ordunun birləşmə, hissə və bölmələri "Həyəcan" siqnalı ilə qaldırılaraq təlim üzrə tapşırıqları uğurla yerinə yetiriblər.

Təlim rayonlarında qoşunların tam komplektləşdirilməsi və döyüşə hazır vəziyyətə gətirilməsi üçün səhra şəraitində şəxsi heyətin və texnikaların qəbulu məntəqələri açılıb. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə və şöbələrindən daxil olan şəxsi heyətə yüksək döyüş ruhunu aşılamaq məqsədi ilə ideoloji qərargah yaradılıb, mənəvi-psixoloji hazırlıq məntəqələri və səhra ideoloji guşələri fəaliyyət göstərib.

Təlimin ikinci mərhələsində əsas diqqət qoşunlarda əməliyyatların planlaşdırılmasına yönəldilib.

Döyüş əməliyyatlarının planlaşdırılması zamanı komandir heyətinin kəskin dəyişən şəraitdə çevik qərar qəbuletmə üzrə bilik və bacarıqları nəzərdən keçirilib. Həmçinin hərbi qərar qəbuletmə prosesi zamanı qərargahlarda zabitlər arasında vəzifələri əvəzetmə qaydalarına da üstünlük verilib.

Təlimin dinamika mərhələsində Əlahiddə Ümumqoşun Ordunun tank, artilleriya birləşmə və hissələrinin peşəkarlıq səviyyəsinin artırılması, praktiki vərdişlərinin təkmilləşdirilməsi məqsədi ilə təlim üzrə rayonlarda döyüş atışlı məşğələlər keçirilib. Bundan əlavə yaradılan tabor və bölük taktiki qrupları gecə və gündüz, çətin keçilə bilən dağlıq ərazilərdə praktiki məşq ediblər.

Təlim çərçivəsində, həmçinin Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı və hava hücumundan müdafiə bölmələrinin, aviasiya eskadrilyasının döyüş hazırlığı və səhra bacarıqları yoxlanılıb.

Komandanlıq tərəfindən verilmiş tapşırıqlar bölmələr tərəfindən yüksək peşəkarlıqla yerinə yetirilib. Beləliklə, uğurla başa çatan irimiqyaslı təlimlərdə qarşıya qoyulan bütün məqsədlərə tam nail olunub.

Bu gün tam əminliklə deyə bilərik ki, Vətənimiz Azərbaycanın qədim və ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasının müdafiəsində ayıq-sayıq dayanan Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti də hər an düşmənə sarsıdıcı zərbələr endirməyə hazırdır.

**Nəriman NƏCƏFOV,**
**"Azərbaycan Ordusu"**

# Müstəqil Azərbaycanda ordu quruculuğu

*AZƏRTAC sabiq birlik komandiri, ehtiyatda olan general-leytenant Yaşar Aydəmirovun müstəqillik dövründə aparılan ordu quruculuğu prosesi, hərbi sahədə həyata keçirilən islahatlar və qazanılan nailiyyətlərlə bağlı qeydlərini təqdim edir.*

## Ordu quruculuğunun Heydər Əliyev dövrü: monolit təməl, uğurlu başlanğıc

1918-ci ilin mayında Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığı elan edildi. Beləliklə, Şərqdə ilk demokratik respublika quruldu. Dövlətçilik tariximizdə mühüm rol oynayan respublika çox keçmədən süquta uğradı və SSRİ-nin tərkibinə daxil edildi. Xalqın müstəqillik arzusu imperiya zəncirlərini qırıb parçaladı və 1991-ci il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyi bərpa olundu.

Müstəqilliyinin ilk illərində ölkədəki mürəkkəb sosial-iqtisadi, ictimai-siyasi vəziyyətin mənfi təsiri ordu quruculuğundan da yan keçmədi. Könüllülərdən yaradılan ordu istər struktur, istərsə də güc baxımından mövcud şəraitin tələblərinə cavab vermir, yerli özünümüdafiə batalyonları məhəlli xarakter daşıyırdı. Vahid komandanlığın olmaması nəticəsində silahlı dəstələr müxtəlif şəxslərin əlində cəmlənmişdi və onların əmrlərini yerinə yetirirdi. Digər tərəfdən, Azərbaycana xarici müdaxilə, Ermənistanın ərazi iddiaları ordu quruculuğunun normal, elmi əsaslarla aparılmasına mane olurdu. Məhz bu vəziyyəti yaradan səriştəsizlik ucbatından, müstəqilliyini yenicə bərpa etmiş respublikada ordu quruculuğu arzulanan səviyyədə getmirdi. Ordu əsas vəzifəsini yerinə yetirmək əvəzinə, bəzi fərdlərin ambisiyalarının icraçısına çevrilmişdi. Yaranmış vəziyyət dövlət çevrilişi həddinə çatmışdı.

Böyük tarixi şəxsiyyət, siyasət elminin mahir bilicisi Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı respublikanı labüd süqutdan xilas etdi və bununla da Azərbaycanda ordu quruculuğunun yeni mərhələsi başlandı. Silahlı Qüvvələrin formalaşması prosesi geniş vüsət aldı. Çox keçmədən ordumuz cəbhədə bir neçə uğurlu əməliyyat həyata keçirdi, bir sıra yaşayış məntəqələrimizin düşməndən azad edilməsinə nail oldu.

Nəhayət, 1994-cü il mayın 12-də atəşkəs barədə sazişin imzalanması ordu quruculuğunda köklü islahatlar aparılmasına şərait yaratdı. Orduya çağırışla bağlı bütün problemlər həllini tapdı, fərarilik halları aradan qalxdı. Dövlətçiliyi və hərbçi şərəfini uca tutan zabitlər rəhbər vəzifələrə irəli çəkildilər. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik işi gücləndirildi. Ordu quruculuğunun müxtəlif sahələri ilə bağlı digər zəruri addımlar atıldı.

Silahlı Qüvvələrin döyüş hazırlığının səviyyəsi təkcə hərbi texnikadan deyil, bu texnikanı idarə edə biləcək savadlı, ixtisaslı kadrlardan, zabit korpusundan əhəmiyyətli dərəcədə asılı idi. Bu istiqamətdə də mühüm zəruri məsələlər həllini tapdı.

1993-cü il noyabrın 1-də Prezidentin müvafiq fərmanı ilə Dövlət Müdafiə Şurası yaradıldı. Həmin gün keçirilən ilk iclasda ordu quruculuğu, müdafiə məsələləri geniş müzakirə olundu, müvafiq qərarlar qəbul edildi. Səfərbərliyin təşkili, döyüş hazırlığının, qoşun hissələrinin, şəxsi heyətin təlim-tərbiyəsinin təkmilləşdirilməsinə, sosial şəraitin yaxşılaşdırılmasına istiqamətləndirilmiş tədbirlər müəyyən olundu. Bu, olduqca vacib amillər idi və Ümummilli Liderimiz ordu quruculuğuna məhz bu məsələləri həll etməklə başladı. Nəticə etibarilə bu proses dünya təcrübəsinə və milli dəyərlər sisteminə əsaslanmaqla uğurla davam etdirildi. Qısa müddətdə atılan düşünülmüş addımlar öz bəhrəsini verdi - nizami ordu yaradıldı və formalaşmağa başladı.

Prezident Heydər Əliyev noyabrın 2-də televiziya və radio ilə xalqa müraciət edərək hamını ölkənin azadlığı uğrunda birləşib düşmənə qarşı mübarizəyə qalxmağa səslədi. Prezidentin çağırışı ilə minlərlə könüllü gənc torpaqlarımız uğrunda gedən döyüşlərə atılmaq üçün ordu sıralarına gəldi. Tezliklə könüllülərdən, Əfqanıstan müharibəsi iştirakçısı olmuş yüzlərlə zabit və əsgərdən ibarət hərbi hissələr və taborlar yaradılaraq cəbhəyə göndərildi.

Bütün bunların nəticəsi olaraq, Azərbaycan Ordusu erməni silahlı birləşmələrinin respublikanın içərilərinə doğru irəliləməsini dayandırdı, hətta əks-hücuma keçdi. 1994-cü il yanvarın 5-də aparılan uğurlu əməliyyatlar nəticəsində Füzuli rayonunda strateji əhəmiyyətli Horadiz qəsəbəsi, 22 kənd işğaldan azad edildi. Həmçinin düşmən ordumuzun Kəlbəcər-Ağdərə, Goranboy-Tərtər istiqamətlərində əks-hücumlarına tab gətirməyərək ağır itkilər verdi və geri çəkilməyə məcbur oldu.

1993-cü il noyabrın 23-də Milli Şurada "Müdafiə haqqında" Qanun qəbul edildi. Qanunda ordu quruculuğunda məsul vəzifəli şəxslərin və orqanların fəaliyyəti sistemləşdirilərək məsuliyyət sahələri dəqiqləşdirilirdi. Noyabr-dekabr aylarında 40 ehtiyat taboru təşkil edildi. Az sonra ulu öndər Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan kimi şəxsən cəbhə bölgələrində ordunun, əsgərlərin vəziyyəti ilə yaxından tanış oldu, konkret tədbirlər müəyyənləşdirdi. Bu, ordunun şəxsi heyətinin mənəvi hazırlığını əhəmiyyətli dərəcədə yüksəltdi. Bununla yanaşı, Prezident vəziyyətə uyğun çevik qərarlar da qəbul edirdi.

Nəhayət, ümummilli lider Heydər Əliyevin 1998-ci il mayın 28-də imzaladığı Fərmanla 26 İyun - Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan olundu. Bu Fərman ordu quruculuğunda varislik ənənələrinin bərpası və tarixilik baxımından böyük əhəmiyyətə malikdir.

Ulu Öndər deyirdi: "Azərbaycanın hər bir vətəndaşı mənim üçün əzizdir, amma Azərbaycan əsgəri, zabiti mənə hər bir vətəndaşdan daha əzizdir, daha yaxındır". Bu sözlər dahi şəxsiyyətin əsgərə, onun timsalında orduya verdiyi qiymətin daha bir təsdiqidir.

## Ordu quruculuğu Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ordu quruculuğu ilə bağlı həyata keçirdiyi tədbirlər bu gün onun siyasi kursunun layiqli davamçısı, Prezident İlham Əliyev tərəfindən inamla, uğurla davam etdirilir. Hərbi sahədə əsaslı islahatlar aparılması ilə yanaşı, ordumuz yeni silah və texnika ilə təchiz edilir. Təminatı yaxşılaşdırmaq üçün Müdafiə Sənayesi Nazirliyi tərəfindən müxtəlif təyinatlı silah növləri istehsal edilir. "İstiqlal" snayper tüfəngi bu qəbildəndir. Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının 90-cı və 95-ci ildönümlərində keçirilən paradlarda ordumuzun qüdrəti bir daha dünyaya nümayiş etdirildi.

Bu gün təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan ordumuz müstəqilliyimizin, dövlətçiliyimizin qarantıdır. Yeni inkişaf mərhələsinə qədəm qoyan Silahlı Qüvvələrimiz regionun ən güclü ordusu və xalqımızın güvənc yeridir.

Silahlı Qüvvələrdə aparılan struktur dəyişiklikləri, döyüş əməliyyatlarının vahid rəhbərlik altında planlaşdırılması, hissələrin hərb elminin tələblərinə uyğun idarə edilməsi, kadrların saflaşdırılması Azərbaycan Ordusunu keyfiyyətcə yeniləşdirib. 1990-cı illərin ortalarından başlayaraq Azərbaycan ilə NATO arasında sıx və səmərəli əməkdaşlıq yaradılıb. Bu əməkdaşlıq ordu quruculuğu prosesinin təkmilləşdirilməsinə, Silahlı Qüvvələrimizin modernləşdirilməsinə, müasir standartlara uyğunlaşdırılmasına gətirib çıxarıb. İndi hər il iki mindən çox hərbçimiz NATO proqramlarında iştirak edərək ən son hərbi yenilikləri mənimsəyirlər. 1997-ci ildən Azərbaycanın xüsusi təyinatlı təhsil müəssisələri NATO standartlarına keçib, Silahlı Qüvvələrimizin tərkibində yaradılan sülhməramlı tabor Şimali Atlantika Alyansının xətti ilə keçirilən hərbi-humanitar aksiyalarda fəal iştirak edir, münaqişə ocaqlarında təhlükəsizliyin, sülhün təminatına dəstək verir. Azərbaycanın Silahlı Qüvvələri bu gün dünyanın ən peşəkar, NATO standartlarına cavab verən ordularından biridir. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu prosesi davamlı surətdə təkmilləşdirilir, hərbi hissələr ən müasir hərbi texnika ilə təchiz olunur, yüksək şəraitə malik hərbi şəhərciklər, döyüş poliqonları yaradılır. Bütün bunların nəticəsidir ki, hazırda torpaqlarımızı düşməndən azad etməyə qadir, yüksək döyüş ruhuna malik ordumuz formalaşıb. Bu, özünü uğurlu aprel döyüşləri zamanı əyani şəkildə təsdiqlədi.



Zaman qarşıya yeni hədəflər qoyur. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun qeyd etdiyi kimi, iqtisadi layihələrin, bölgədə təhlükəsizliyin təmin edilməsi üçün Türkiyə, Gürcüstan və Azərbaycan arasında hərbi əməkdaşlıq günün tələbidir. Bu ilin mayında hər üç ölkənin Müdafiə nazirlərinin görüşündə əldə edilmiş razılığa əsasən, Silahlı Qüvvələrin birgə təlimləri, təhsil sistemlərinin inteqrasiyası, hərbi-texniki əməkdaşlıq, "İntema" adlı komanda qərargah təlimləri genişlənməkdədir.

Hazırda Silahlı Qüvvələrimizin təhsil sistemində müasir standartlara uyğun yeni proqram tətbiq edilir ki, bu da yüksək hazırlığa malik zabit kadrlarının hazırlanmasına imkan verir. Xüsusi təyinatlı təhsil müəssisələrinin professor-müəllim heyəti Türkiyənin, ABŞ-ın, Litvanın, Pakistanın, İordaniyanın, eləcə də NATO-nun hərbi təhsil müəssisələrinin nümayəndələri ilə vaxtaşırı təcrübə mübadiləsində iştirak edir. Azərbaycan-NATO Birgə Təlim və Tədris Fəaliyyət Planına müvafiq olaraq, Silahlı Qüvvələrin xüsusi təyinatlı təhsil müəssisələrinin tədris proqramlarının təkmilləşdirilməsi məqsədi ilə Hərbi Akademiyada tədris proqramına "Müdafiə strategiyası və planlaşdırılması" kimi yeni fənn daxil edilib.

Cəbhə bölgəsində yerləşən birləşmələrin döyüş texnikası ilə silahlandırılması hərbi hissələrin atəş gücünü və manevr qabiliyyətini artırıb. Qoşunların sərəncamına daha müasir minaatan, tank əleyhinə idarə olunan raket, daşınan zenit-raket kompleksləri və müxtəlif qumbaraatanlar verilib. Bu proses indi də davam etdirilir.

Təlimlərdə hərbi hissələrin döyüş hazırlığının səviyyəsi yoxlanılır, döyüş texnikalarının, müasir silahların tətbiqi imkanları öyrənilir, tapşırıqların daha operativ və səmərəli yerinə yetirilməsi, qərargahlar tərəfindən əməliyyatların hazırlanması, qarşılıqlı fəaliyyətin və təminatın təşkili səviyyəsi təhlil edilir.

Bakıda keçirilən Beynəlxalq müdafiə sənayesi sərgilərində ölkəmizin müdafiə sənayesinin istehsal etdiyi məhsullar, ordu quruculuğunda qazanılmış nailiyyətlər nümayiş olunur. Bu sərgi, digər tərəfdaş dövlətlərlə əməkdaşlıq əlaqələri qurmaq baxımından da olduqca faydalıdır.

Hazırda Silahlı Qüvvələrimizin qarşısında dayanan bir nömrəli vəzifə torpaqlarımızın işğaldan azad olunması, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsidir. Ordumuzun gündən-günə gücləndirilməsi, döyüş qabiliyyətinin daim artırılması, aparılan məqsədyönlü islahatlar məhz bu vəzifənin uğurla yerinə yetirilməsinə yönəlib.

# Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizəyə həsr edilən “Əsrin qəhrəmanlığı” abidəsinin açılışı olub

*Noyabrın 25-də "Azərbaycan Respublikası Müharibə Veteranları və Beynəlmiləlçi Hərbçilər" İctimai Birliyinin təşkilatçılığı ilə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi hissələrinin ölkəmizin mənafeyi, ərazi bütövlüyü və müstəqilliyinin təmin edilməsi uğrunda fədakarlığının təbliği" mövzusunda tədbir keçirilib.*



AZƏRTAC xəbər verir ki, Respublika Veteranlar Təşkilatında keçirilən tədbirdə Azərbaycanın Dövlət himninin səsləndirilməsindən sonra ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda şəhid olan oğul və qızlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə layihə rəhbəri, İctimai Birliyin sədri, Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi, ehtiyatda olan polkovnik Əzizağa Qənizadə çıxış edərək bildirib ki, məqsəd ən yeni hərb tariximizdə baş vermiş döyüşlərdə, o cümlədən Kəlbəcər uğrunda hərbi əməliyyatlarda “N” hərbi hissəsinin döyüşçülərinin qəhrəmanlıqlarını təbliğ etmək, onların igidliklərini gənc nəslə aşılamaq, böyüməkdə olan nəsli hərbi vətənpərvərlik ruhunda tərbiyə etməkdir.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ehtiyatda Olan Zabitlər Konfederasiyasının sədri, ehtiyatda olan general-mayor Məmmədhüseyn Sarıyev və digərləri çıxışlarında gənc nəslin milli vətənpərvərlik ruhunda tərbiyəsində belə layihələrin önəmini yüksək qiymətləndiriblər.

Sonra layihə çərçivəsində hazırlanan, Əzizağa Qənizadənin ideya müəllifi olduğu "Əsrin qəhrəmanlığı" abidəsinin açılışı olub. Tədbirdə, həmçinin kütləvi qəhrəmanlıq səhnəsini əks etdirən "Kəlbəcərin müdafiəsi" rəsm əsərinin də təqdimatı keçirilib.

Rəssam və heykəltəraş Natiq Camal Əfşarın hazırladığı "Əsrin qəhrəmanlığı" abidəsi Vətən uğrunda şəhid olmuş oğul və qızlarımızın xatirəsinə həsr edilib.

Tədbirin sonunda "Mühasirə" adlı qısametrajlı sənədli film nümayiş olunub.

*Ovqat*

# Şeir də qələbə üçündü

*Andiçmə inandırma cəhdidi. Andın obyekti and içən üçün müqəddəs, əziz olduğuna görə səmimiyyətlə içilən anda inanılır...*



Cəmiyyəti inandırmağa yönəldilən andiçmə təntənəli olur. Belə andiçmə hərbi andıçmədi, məsuliyyət üçündü, əminlik üçündü, and içən üçün də, cəmiyyət üçün də qanunla müəyyənləşdirilmiş tədbirdi, mahiyyəti etibarilə inamdı...

Yeniyetmə hərbi xidmətə çağırılır. Gənc əsgər olaraq hərbi and içir - Vətəni göz bəbəyi kimi qoruyacağına, komandirlərinin əmr və göstərişlərini sözsüz yerinə yetirəcəyinə, Vətən naminə canından da keçməyə hazır olduğuna ... Valideynlər də, komandirlər də, ictimaiyyət də inanır ki, gənc əsgər nümunəvi xidmət edəcək: hərbi and əsgərin (ümumən hərbçinin) amalının söz təsdiqidi.

Bərdədə tədbirdəydim. Aprel döyüşlərində şəhid olmuş baş leytenant Ziya Həsənovun anım günüydü. Əməkdar incəsənət xadimi polkovnik Abdulla Qurbaninin ssenarisi və rejissorluğuyla keçirilən "Xalqa qələbə sevinci yaşadanlar" tədbiri şəhidliyə ehtiram kimi yaşanılırdı (tədbirdən sonra da yaşanılacaqdı!). Düşüncələrdə, xatirələrdə, yaddaşlarda yaşadılacaqdı. Tədbir müddətində hər ürək özü boyda bir dünya idi, tədbirdən sonra şəhidliyin mahiyyətinin - şəhidlik dünyasının zərrəsi olacaqdı. Bu qənaəti düyünlənən yumruqlar təsdiqləyirdi, çatılan qaşlar, nəmlənən kirpiklər, yanaqlarda közə dönən göz yaşları, bir də bir azdan Qarabağ müharibəsi əlili Nizami Heydərovun oxuyacağı and-şeir...

Nizami çıxış etmədi, şeir oxudu. O nə kəlmələriydi, İlahi?! Kəlmələr elə bil. Şeirin son misralarını hansı sözlərlə ifadə eləyim? - mümkün deyil...

Nizami and içirdi. Öz adından and içirdi, döyüşçü yoldaşlarının adından and içirdi, şəhidlərimizin ruhu adından and içirdi, xidmət edən hərbi qulluqçuların adından and içirdi. Dost eşitsin deyə and içirdi, düşmən eşitsin deyə and içirdi. Şəhidlərin ruhu haqqı!.. deyirdi. Bu misraları uşaqlar da, qocalar-ahıllar da, hərbçilər də təkrarlayırdı. Ayaq üstə təkrarlayırdı. Müqəddəs mahiyyətli bir tədbirdə müqəddəsliyə içilən and Bərdə rayon Mədəniyyət evinin divarları arasında qala bilərdimi? Bir neçə gündən sonra bu misraları Bayraqtəpədə əsgərlərdən birindən eşitdim...

Bərdədəki o tədbirdə 13-14 yaşlı bir uşağın göz yaşları içində "Şəhidlərin ruhu haqqı!" nidasının kəsilməz bir haray kimi göy üzünə yayıldığını unutmaq mümkünmü? Şəhid oğluydumu, şəhid oğlunun dostuydumu, biləmmədim. Tanımadığı o uşağı bağrına basan ağbirçəyin dodaqlarında közə dönən iki kəlmə məni varımdan yox elədi; "Can bala!..". Eşitdiyim çırpıntıları yaşayırdı...

Kimsə yerindən tərpənmirdi. Bu gözlənilməz and hamının düşüncələrini sıxmaqdaydı, hamı bir mətləbin cəfakeşiydi: Bu anda sədəmə toxuna bilməz! Hamı içilən anda görə əsgərləşmişdi. Səhnədə şəhidin rəmzi məzarının sağında-solunda dayanmış əsgərlərin əli avtomatının qundağını sıxmaqdaydı...

...Bu andı "Torpaqlarımızı işğaldan azad edəcəyik!" - kimi dərk elədim...

Müqəddəsliyə içilən anda əməl edilir...

Nizami and içdi: "Şəhidlərin ruhu haqqı!"...

Bərdəlilər and içdilər: bu qan yerdə qalmayacaq! Bu anda bütün məmləkət qoşulur: bu qan yerdə qalmayacaq, Vətən, qalmayacaq!..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# Xəbərlər: hadisələr, faktlar

## Çində elektrik stansiyasındakı uçqunda ölənlərin sayı 74-ə çatıb



Çinin Ciansi vilayətində elektrik stansiyasının tikilməkdə olan soyutma qülləsində baş verən uçqun nəticəsində ölənlərin sayı 74-ə çatıb. Hadisə noyabrın 24-də yerli vaxtla saat 07.00 radələrində baş verib.

Hadisə yerində 300-dən çox xilasedici işləyir. Dağıntılar altında insanların qala biləcəyi ehtimal olunur. Hadisə baş verən zaman tikintidə 60 nəfərdən çox adam çalışırmış, onlarla fəhlə isə növbəni təhvil almaq üçün gözləyirmiş.

Layihə üzrə qüllənin hündürlüyü 156 metr nəzərdə tutulub. Aprel ayından bəri qüllənin 70 metrlik hissəsinin inşası başa çatıb.

Elektrik stansiyasının aid olduğu "Jiangxi Ganneng Co. Ltd." şirkətinin aksiyalarının birjalarda satışı uçqundan sonra dayandırılıb.

## Misirdə terrorçuların hücumu nəticəsində 8 hərbçi həlak olub



Misirin Sinay yarımadasının şimalında nəzarət-buraxılış məntəqəsində avtomobilə quraşdırılmış bombanın partlaması nəticəsində 8 hərbçi həlak olub.

Hadisə Sinayın şimalındakı nəzarət-buraxılış məntəqələrindən birində baş verib. Bir qrup terrorçu məntəqəyə hücum edib. Baş verən atışma zamanı avtomobilə quraşdırılmış bombanın işə düşməsi Misir Silahlı Qüvvələrinin 8 hərbçisinin ölümü ilə nəticələnib.

## Belarus 2020-ci ilə qədər çoxtəyinatlı “Su-30SM” təyyarələri almaq niyyətindədir



Belarus 2020-ci ilə qədər yeni nəsil çoxtəyinatlı "Su-30SM" təyyarələrinin ən azı eskadrilyasını almaq niyyətindədir. Bunu Belarus Hərbi Hava Qüvvələrinin (HHQ) və Hava Hücumundan Müdafiə (HHM) qoşunlarının komandanı Oleq Dviqalev noyabrın 23-də jurnalistlərə bəyan edib.

Bu gün Lida şəhərində HHQ-nin və HHM qoşunlarının 116-cı qvardiya həmlə aviabazasının şəxsi heyətinə Rusiyanın "İrkut" Elm-İstehsalat Korporasiyası" ASC-nin istehsalı olan dörd "Yak-130" təlim-döyüş təyyarəsi verilib. O.Dviqalev formulyarları aviasiya bazasının texniklərinə təqdim edərək vurğulayıb ki, bu, "Yak-130" təyyarələrinin artıq ikinci partiyasıdır, dörd təyyarədən ibarət ilk partiya aviabazaya 2015-ci ildə təhvil verilib.

O.Dviqalev deyib: "Yeni nəsil çoxtəyinatlı "Su-30SM" təyyarəsinin satın alınması nəzərdə tutulur. Bu təyyarə səmərəli olduğunu Suriya münaqişəsində göstərib. Bir sıra ölkələrdə bu təyyarə silahlanmaya qəbul edilib". O vurğulayıb ki, "Su-30SM" təyyarəsi "Yak-130" ilə eyni müəssisədə istehsal olunur.

## İraqda partlayış: həlak olanların sayı 100 nəfərə yaxınlaşıb



Bağdaddan 100 kilometr aralıda yerləşən Babil əyalətinin inzibati mərkəzi Əl-Xillə şəhərindəki yanacaqdoldurma məntəqəsində yük maşınının partladılması nəticəsində həlak olanların sayı 100 nəfərə yaxınlaşıb.

Terror aktı qurbanlarının əksəriyyəti iranlı zəvvarlardır. Onlar Kərbəlada keçirilən dini mərasimdən qayıdırdılar. Partlayış zamanı məntəqədə zəvvarlarla dolu bir neçə avtobus olub.

Terror aktına görə məsuliyyəti İŞİD qruplaşması üzərinə götürüb. Qruplaşmanın yaydığı bəyanatda partlayış nəticəsində 200-dək insanın öldüyü bildirilir.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

*Fiziki hazırlıq*

# Döyüşdə vacib şərtlərdən biri

"Azərbaycan Prezidenti kimi şəxsən mən söz vermişəm və indi də bunu təsdiq edirəm ki, idmana xüsusi qayğını öz üzərimə götürürəm. Azərbaycan gənclərinə xüsusi qayğını öz üzərimə götürmüşəm və əmin ola bilərsiniz ki, bu qayğını daim hiss edəcəksiniz." Ulu öndər Heydər Əliyevin ictimaiyyət nümayəndələri qarşısında bu çıxışını yaxşı xatırlayıram.

Təsadüf deyil ki, idman ictimaiyyətimizin bütün nümayəndələri ümummilli lider Heydər Əliyevi həm də Azərbaycan idmanının qurucusu hesab edir, mötəbər idman yarışlarında ölkəmizi layiqincə doğrultmağa çalışırlar. Ulu Öndərin layiqli davamçısı olan Prezident İlham Əliyev də idmana xüsusi diqqət yetirir. Bunun nəticəsidir ki, dünyanın bir çox mötəbər yarışları Azərbaycanda təşkil edilir.



Hərbi hissələrdə ezamiyyətdə olarkən şəxsi heyətin fiziki hazırlığına ciddi fikir verilməsinin şahidi oluruq. İdman saatlarında əsgərlərimiz böyük həvəslə öz vərdişlərini artırırlar. Orduda idmana xüsusi diqqət yetirilməsi səbəbsiz deyil. Çünki düşmən qarşısında silah, texnika, döyüş hazırlığı baxımından fiziki hazırlıq da vacib şərtdir. İdman şəhərciyində alətlərdən məharətlə istifadə edən, normativləri vaxtında və düzgün yerinə yetirməyə çalışan hərbçilərə yaxınlaşırıq.

Taqım komandiri baş leytenant Ülvi Əliyevlə həmsöhbət oluruq.

- Hərbi hissəmizdə idmana xüsusi diqqət yetirilir, - deyə gənc zabit bildirir. - Axı idman hərbi qulluqçunun döyüş tapşırığını yerinə yetirə bilməsində əsas vasitədir. Buna görə də hər birimiz hərbi hissədə təşkil olunan fiziki hazırlıq və idman tədbirlərində fərqlənməyə çalışırıq.

Turnikdə dartınma, paralel qollarda idman hərəkətləri edən əsgərlərlə həmsöhbət oluram.

Sumqayıtdan hərbi xidmətə çağırılan Rəhman Babayev 2 ildən artıq müddətdə idmanın cüdo növü ilə məşğul olduğunu bildirdi. "Hərbi xidmətə gəldiyim ilk gündən bütün idman saatlarında iştirak etmişəm. Çünki idmanın əhəmiyyətini yaxşı başa düşürəm. Əsgər dostlarım Əmrah Əbülfəzli, Qurban Alıyev, Həsən Qasımov və başqalarıyla hər an döyüşə hazırıq. Hər birimiz silah və texnikaları öyrəndiyimiz kimi fiziki cəhətdən də hazırlıyıq."

Düşmən qarşısında yenilməz Azərbaycan oğullarının olduğunu unutmamalıdır. Hərbi xidmətdə hər gün yeni hərbi biliklərə yiyələnən gənclərimiz düşmənə qan uddurmağa hazırdırlar. Qorxsun erməni anası ki, döyüşdə məhv olan onların övladları olacaq. Əmrahların, Qurbanların, Həsənlərin... ürəyindəki Vətən sevgisinin qarşısında heç kim dura bilməz.

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.COŞQUNUNDUR**

# Hərbi yeniliklər, ənənələr



## Odsaçan “Solntsepek” sistemi

"Solntsepek" uzaq məsafələrə güclü atəş açan mərmilərlə işləyən ağır odsaçan sistemdir. TOS-1A "Solntsepek" qurğusu 2001-ci ildə yaradılıb və rus ordusunun silahlanmasına qəbul edilib. Yeddi ildən sonra bir çox ölkələrə, həmçinin bizim ölkəmizə ixracı həyata keçirilib.

"Solntsepek"in əsas layihəsi T-72 Sovet tankının bazasında və ağır odsaçan "Buratino" sistemi əsasında hazırlanıb. "Buratino"nun fərqləndirici cəhəti onda hava-yanacaq qarışığı ilə doldurulmuş termobarik mərmilərdən istifadə edilməsidir. Bir qurğuda 30 ədəd mərmi yerləşir, onun birinin partlayışı nəticəsində atmosfer təzyiqi əmələ gəlir və temperatur 3000 dərəcəyə qədər çatır.

Odsaçan qurğu müasir idarəetmə sistemi, zireh və müasir döyüş sursatları ilə təchiz edilib. Onun hər bir mərmisində 100 kiloqrama qədər hava-od qarışığı vardır. Məhz buna görə də "Solntsepek" TOS-1A 40 kvadrat kilometrlik məsafədə olan düşmənin canlı qüvvəsini və texnikasını, eləcə də yüngül zirehlənmiş texnika və nəqliyyat vasitələrini məhv etməyə qadirdir. Sistemin tərkibinə bir ədəd BM-1(A) və tank şassisində iki ədəd TZM-T, 220 mm çaplı NURS daxildir.



"Solntsepek" TOS-1A 24 reaktiv mərmidən bir yaylım atəşi açmaqla düşmənin açıq və örtülü səngərlərində yerləşən canlı qüvvəsini məhv edə bilər. Onun məhvetmə sahəsi 40 min kvadrat metr təşkil edir. Müdafiə olunmaq üçün heyət tərəfindən RPKS-74 pulemyotlarından, üç ədəd "Aqlen" RPQ-26 tankəleyhinə qumbaralarından və on ədəd F-1 əl qumbarasından istifadə edilə bilər. Maşında güc qurğusu qismində 840 at gücündə dizel mühərriki quraşdırılıb. "Solntsepek"də səngər qazmaq üçün buldozer, maskalanmaq üçün tüstülü qumbaraların atılmasından ötrü dörd ədəd buraxıcı qurğu və termik tüstülü aparat yerləşdirilib. Daha sonra burada yanğınsöndürmə, kütləvi qırğın silahından qorunmaq üçün kollektiv mühafizə sistemi də quraşdırılıb. "Solntsepek" TOS-1A sistemi 20 kilometrlik məsafədən radiostansiya vasitəsilə rabitə əlaqəsi yarada bilir. Onun nəqliyyat-təchizat maşını isə silahlanmanın daşınması, buraxıcı qurğunun təchiz edilməsi, boşaldılması üçün təyin edilib. Heyətin tərkibinə komandir, operator, mexanik-sürücü daxildir. Onun TZM-T (nəqliyyat-təchizat maşını) isə 400 litrə qədər yanacağı BM-1 üçün daşıya bilər.

Taktiki-texniki xüsusiyyətlərinə görə döyüş vəziyyətində "Solntsepek"in çəkisi 46000 kiloqram, səyyar vəziyyətində uzunluğu 6860 mm, eni 3460 mm, hündürlüyü 2600 mm, çapı 220 mm, lülənin uzunluğu 5000 mm, minimal atəş uzaqlığı 400 metr, maksimal atəş uzaqlığı 3600 metr (yeni raketlərlə isə 6000 metr) təşkil edir. Məhvetmə sahəsi yandırıcılarla 1000 metr, 2000 metr isə termobarik mərmilərlə. Şose yolda maksimal sürəti saatda 65 kilometrdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan güləşçiləri Bakıda keçirilən “Qızıl Qran-pri” beynəlxalq turnirinin birinci günündə 7 medal qazanıblar



Noyabrın 24-də Bakı İdman Sarayında ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş güləş üzrə "Qızıl Qran-pri" beynəlxalq turnirinin final mərhələsinin birinci gününə yekun vurulub.

9-cu dəfə təşkil olunan turnirin ilk günündə Azərbaycan idmançıları 7 medal qazanıblar.

50-dən çox ölkədən 700-ə yaxın güləşçinin mübarizə apardığı turnirin birinci günündə sərbəst güləş üzrə 57, 61, 65, 70, 74, 86, 97 və 125 kiloqram çəki dərəcələrində qaliblər müəyyənləşib.

Yığmamız 3 qızıl, 1 gümüş və 3 bürünc medala sahib olub. Qızıl medalları yığmamıza Giorgi Edişeraşvili (57 kq), Əhmədnəbi Qvarzatilov (61 kq) və Cəbrayıl Həsənov (74 kq) qazandırıblar. Gitinomaqomed Hacıyev (70 kq) yalnız final görüşündə uduzaraq gümüş medalla kifayətlənib. Bürünc medallara isə Coşqun Əzimov (65 kq), Murad Süleymanov (74 kq) və Aslanbek Alborov (97 kq) layiq görülüblər.

## Gənclər arasında dünya çempionatının dörddəbir finalında iki boksçumuz mübarizə aparacaq



Sankt-Peterburqda gənclər arasında boks üzrə XX dünya çempionatının dörddəbir final mərhələsində Azərbaycanın iki idmançısı rinqə çıxacaq.

60 kiloqram çəki dərəcəsində mübarizə aparan Sərxan Əliyev yarımfinala vəsiqə uğrunda Ukraynanı təmsil edən ermənistanlı boksçu Zoravor Petrosyan ilə qarşılaşacaq. Ən ağır çəkili idmançımız (+91 kq) Məhəmməd Abdullayev isə avstraliyalı Castis Hani ilə döyüşəcək.

## Ağdamın “Qarabağ” klubu səfərdə Çexiyanın "Slovan" komandası ilə qarşılaşıb



Noyabrın 24-də Ağdamın "Qarabağ" komandası UEFA Avropa Liqasının qrup mərhələsinin beşinci turu çərçivəsində səfərdə Çexiyanın "Slovan" komandası ilə qarşılaşıb.

Qarşılıqlı hücumlar şəraitində başlayan görüşün 11-ci dəqiqəsində "Slovan"ın futbolçusu Eqon Vux hesabı açıb. Komandaların cəhdlərinə baxmayaraq, ilk hissə Çexiya təmsilçisinin minimal üstünlüyü ilə başa çatıb.

İkinci hissəyə "Slovan" daha fəal başlayıb. Görüşün 56-cı dəqiqəsində Maksim Medvedevin kobud oyununa görə "Qarabağ"ın qapısına təyin olunmuş penalti zərbəsini Nikolay Komliçenko dəqiq yerinə yetirib. Altı dəqiqə sonra N.Komliçenko üçüncü topu "Qarabağ"ın qapısından keçirməklə dublunu rəsmiləşdirib və bu qol oyunda sonuncu olub.

Beləliklə, görüş "Slovan"ın 3:0 hesablı qələbəsi ilə yekunlaşıb.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Ələkbərov Vüsal Meyxoş oğluna 2006-cı ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Səfərov Elçin Nizam oğluna 2010-cu ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
leytenant Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 574
Nüsxə 4650